81. Qoruyucu kəməri sementləyən zaman məhlulun xüsusi çəkisi düzgün seçilməzsə hansı mürəkkəbləşmə yarana bilər?

A) Sementləmə zamanı əks klapan açılmaz və sement laya gedər

B) Sement həlqəvi fəzaya daxil olar

C) Kəmər arxası təzahür baş verə bilər

D) Sement yaxşı bərkiməz

E) Sementin tutuşma başlanğıcı ləngiyər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Rafiq İbrahimov. Neft və qaz quyularının tamamlanması. Bakı, 2016

82. Quyuya qoruyucu kəmərin buraxılması və sementlənməsi işlərinə aidiyyatı olmayan əməliyyat hansıdır?

A) Quyu lüləsinin işlənməsi

B) Sementləmə planının tərtib edilməsi

C) Quyuağzında fontan armaturunun quraşdırılması

D) Qazma avadanlığının yoxlanılması

E) Ehtiyat qazma məhlulunun çənlərdə saxlanılması

Testin çətinlik dərəcəsi: asan

İstinad: Rafiq İbrahimov. Neft və qaz quyularının tamamlanması. Bakı, 2016

83. Sementləmənin sonunda neçə ədəd aqreqatdan istifadə etmək lazımdır?

A) 3 ədəd

B) 2 ədəd

C) 4 ədəd

D) 6 ədəd

E) 7 ədəd

Testin çətinlik dərəcəsi: asan

İstinad: Rafiq İbrahimov. Neft və qaz quyularının tamamlanması. Bakı, 2016

84. Sementləmədən əvvəl aqreqatdan sementləmə başlığına gələn xətt hesablanmış təzyiqdən nə qədər çox sınaq təzyiqinə yoxlanmalıdır?

A) 3 dəqiqə müddətində gözlənilən təzyiqin 2,0 misli qədər

B) 3 dəqiqə müddətində gözlənilən təzyiqin 1,5 misli qədər

C) 5 dəqiqə müddətində gözlənilən təzyiqin 0,5 misli qədər

D) 3 dəqiqə müddətində gözlənilən təzyiqin 2,5 misli qədər

E) 10 dəqiqə müddətində gözlənilən təzyiqin 1,75 misli qədər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Rafiq İbrahimov. Neft və qaz quyularının tamamlanması. Bakı, 2016

85. Qazma məhlulunda nişastanın çürüməsinin qarşısını almaq üçün aşağıdakı hansı üsullardan istifadə edilir?

A) Yüksək minerallığı saxlamaq, antifermentator əlavə etmək, yüksək keçiriciliyi saxlamaq

B) Yüksək minerallığı artırmaq, inhibitor əlavə etmək, yüksək qələviliyi artırmaq

C) Yüksək minerallığı saxlamaq, antifermentator əlavə etmək, yüksək qələviliyi kəskin aşağı salmaq

D) Yüksək minerallığı aşağı salmaq, antifermentator əlavə etmək, yüksək qələviliyi saxlamaq

E) Yüksək minerallığı saxlamaq, antifermentator əlavə etmək, yüksək qələviliyi saxlamaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: P.Quliyev,H.Məcidov, S.Cəlalov. Qazma məhlulları. Dərslik. Bakı, 2003

86. Bir Paskal neçə bara bərabərdir?

A) 10-7 bar

B) 10-6 bar

C) 10-4 bar

D) 10-2 bar

E) 10-5 bar

Testin çətinlik dərəcəsi: orta

İstinad: P.Quliyev,H.Məcidov, S.Cəlalov. Qazma məhlulları. Dərslik. Bakı, 2003

87. 1 Paskal neçə bara bərabərdir ?

A) 10-9 bar

B) 10-2 bar

C) 10+4 bar

D) 10-5 bar

E) 10-8 bar

Testin çətinlik dərəcəsi: asan

İstinad: P.Quliyev,H.Məcidov, S.Cəlalov. Qazma məhlulları. Dərslik. Bakı, 2003

88. 1 bar neçə atmosferə bərabərdir ?

A) 0,945 atm.

B) 0,887 atm.

C) 0,932 atm.

D) 0,767 atm.

E) 0,987 atm.

Testin çətinlik dərəcəsi: asan

İstinad: P.Quliyev,H.Məcidov, S.Cəlalov. Qazma məhlulları. Dərslik. Bakı, 2003

89. Qazmada rejim parametrləri aşağıdakı hansı bənddə düzgün göstərilib ?

A) Baltaya verilən oxboyu yük, qazma məhlulunun sərfi, qazma baltasının dövrlər sayı

B) Qazma məhlulunun miqdarı, qazma baltasının dövrlər sayı, qazma borularının miqdarı

C) Baltaya verilən oxboyu yük, Qazma borularının miqdarı, qazma baltasının dövrlər sayı

D) Baltaya verilən oxboyu yük, qazma məhlulunun sıxlığı, qazma baltasının növü

E) Baltanın fırlanma dövrlər sayı, qazma məhlulunun sıxlığı, qazma baltasının tipi

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

90. 1 Amerika qalonu neçə litrdir?

A) 3,48 litr

B) 3,25 litr

C) 3,78 litr

D) 4,45 litr

E) 4,49 litr

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma Mühəndisliyi. Bakı, 2014

91. Maye dövranının itməsi gözlənilən zonalar aşağıdakı hansı bənddə düzgün xarakterizə edilib?

A) Kavernalı, təbiətən yarılmış, ayrılmış

B) Təbiətən yarılmış, sünii təzyiqdən ayrılmış

C) Kavernalı, təbiətən yarılmış, sinusoidal

D) Yüksək dərəcədə keçirici, kavernalı, təbiətən yarılmış.

E) Yüksək dərəcədə keçirici, kavernalı, sünii təzyiqdən ayrılmış

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma Mühəndisliyi. Bakı, 2014

92. Təzahürə nəzarətetmə üsulları aşağıdakı hansı bənddə düzgün göstərilib?

A) Qazmaçı üsulu, mühəndis üsulu, atqı ilə paralel mübarizə üsulu, yüngülləşdirmə üsulu

B) Mühəndis üsulu, atqı ilə paralel mübarizə üsulu, dinamik boğma üsulu, ayrılma üsulu

C) Atqı ilə paralel mübarizə üsulu, dinamik boğma üsulu, hidravlik yarma üsulu

D) Qazmaçı üsulu, mühəndis üsulu, svablama üsulu, dinamik boğma üsulu

E) Qazmaçı üsulu, mühəndis üsulu, atqı ilə paralel mübarizə üsulu, dinamik boğma üsulu.

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma Mühəndisliyi. Bakı, 2014

93. Layların açılmasının neçə növü var? (Tam doğru cavabı seçin)

A) Hidroqumşırnaqlı və gülləli perforasiya ilə açılma

B) Kumulyativ və torpadalı perforasıya ilə açılma

C) Perforatorlu və perforatorsuz açılma

D) İlkin açılma və təkrar açılma

E) Perforasiya və ya turşu ilə təsir etməklə açılma

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Ə.İskəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014

94. Hansı quyular keçici quyular adlanır?

A) Geoloji səbəblərdən layihədə göstərilən müddətdə tikintisi yekunlaşmayan quyular

B) Texniki səbəblərdən layihədə göstərilən müddətdə tikintisi yekunlaşmayan quyular

C) Tikinti müddəti 1 ildən artıq olan quyular

D) Bir aydan o biri aya keçən qazılan quyuları

E) Bir ildən o biri ilə keçən qazılan quyular

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.S.İsayev. İstehsalın təşkili əsasları. Bakı, 2009

95. Aşağıdakılardan hansı rotorlu qazma qurğusunun tərkib hissələrinə aid deyil?

A) Hasilata nəzarət sistemi

B) Atqıya qarşı nəzarət-idarəetmə sistemləri

C) Qazma məhlulunun dövranı sistemi

D) Güc sistemi

E) Qaldırma-endirmə sistemi

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma Mühəndisliyi. Bakı, 2014

96. Quyuların möhkəmləndirilməsi dedikdə nə başa düşülür?

A) Quyuların qazılması prosesində quyu ağzında atqıya qarşı avadanlığın (preventor) quraşdırılması

B) Quyu divarının dəyanətli olmasını təmin etmək məqsədilə quyuya qoruyucu kəmərlərin buraxılması və kəmər arxası fəzanın sementlənməsi

C) Quyuağzı avadanlıqların yığıldıqdan sonra işçi təzyiqə sınanması

D) İstismar kəmərində yaranmış defektlərin sementləmə yolu ilə aradan qaldırılması

E) Qoruyucu kəmərlərin quyuya buraxılması və onların layihədə göstərilən işçi təzyiqə sınanması

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

97. Diametri 426 mm-dən 194 mm-ə qədər olan qoruyucu kəmərlərin arxası sementləndikdən sonra, kəmərin hermetikliyi hansı təzyiqə sınanır?

A) 120 – 150 atm

B) 90 – 130 atm

C) 15 – 35 atm

D) 10 – 20 atm

E) 50 – 75 atm

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

98. İlkin sementləmədən sonra, kəmərin hermetikliyə sınanması zamanı hansı hallarda kəmər hermetik hesab olunur?

A) Sınaq təzyiqi 3 – 5 atm aşağı düşərsə

B) Sınaq təzyiqi 0,5 – 1 atm aşağı düşərsə

C) 8 saat ərzində quyudakı mayenin səviyyəsi 2 m-dən çox artarsa

D) 8 saat ərzində quyudakı mayenin səviyyəsi 2,5 m-dən çox artarsa

E) Quyudakı mayenin səviyyəsi 2 m-dən çox azalarsa

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

99. Aşağıdakı elementlərdən hansı texnoloji prosesə daxil deyil?

A) Texnoloji əməliyyat

B) Elementar keçid

C) İşçi hərəkət

D) Texnoloji keçid

E) Xammal və materiallar

Testin çətinlik dərəcəsi: asan

İstinad: K.Ş.Eyyubov. İstehsalın texnoloji əsasları. Bakı, 2014

100. Texnoloji əməliyyat nədir?

A) Texnoloji keçiddən rejimi dəyişmədən bir işçi keçid ərzində pəstahın bir səthinin bir alətlə emal olunan hissəsidir

B) Texnoloji prosesin bir hissəsi olub, bir iş yerində bir və ya bir neçə hissənin eyni vaxtda bir və ya bir neçə fəhlənin köməyi ilə yığılmasıdır

C) Dəzgahın və ya insanın texnoloji keçidin yerinə yetirilməsi üçün vacib olan hərəkətidir

D) İnsanın müəyyən bir hərəkətlə və ya məqsədlə, məsələn hər hansı bir keçidin aparılması üçün tamamlanmış hərəkətləri çoxluğudur

E) Texnoloji keçidin tamamlanmış bir hissəsi olub, işçi hərəkətin yerinə yetirilməsinə hazırlıq olan hərəkətdir

Testin çətinlik dərəcəsi: orta

İstinad: K.Ş.Eyyubov. İstehsalın texnoloji əsasları. Bakı, 2014

101. Dəniz qazma qurğularının quru qazma qurğularından əsas fərqi nədir?

A) Rayzerin (dikboru) olması

B) Məhlul şlanqının olması

C) Tal kanatının olması

D) Rotor stolunun olması

E) Fırlanğıcın olması

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma Mühəndisliyi. Bakı, 2014

102. Qazma zamanı hansı növ təzyiqli laya rast gəlmək olar? (Tam cavabı seçin)

A) Normal

B) Normal və Anormal

C) Normal, Anormal və Subnormal

D) Normal və Subnormal

E) Anormal və Subnormal

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma Mühəndisliyi. Bakı, 2014

103. Sementləmə prosesinin lazımı zonada aparıldığını müəyyən etmək üçün hansı cihazdan istifadə edilir?

A) Aerometr

B) Manometr

C) Termometr

D) Viskozimetr

E) Barometr

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma Mühəndisliyi. Bakı, 2014

104. İlkin sementləmədən sonra kəmərin hermetikliyini yoxlamaq üçün aparılan sınaqda təzyiq nə qədər aşağı düşdükdə kəmər hermetik hesab olunmur?

A) 1-2 atm-dən çox

B) 2-3 atm-dən az

C) 2-3 atm-dən çox

D) 3-5 atm-dən az

E) 3-5 atm-dən çox

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

105. Sınaq temperaturuna və tətbiqinə görə "isti quyular üçün sement" sinfinə aid olan sementlərin sınaq temperaturunu göstərin.

A) 65 ± 3°S

B) 70 ± 3°S

C) 75 ± 3°S

D) 80 ± 3°S

E) 90 ± 3°S

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

106. Quyuların tamamlanması hansı əsas növlərə bölünür?

A) Açıq lülə tamamlamaları, kəmər qoyulmuş tamamlamaları

B) Açıq lülə tamamlamaları, qapalı lülə tamamlamaları

C) Qapalı lülə tamamlamaları, kəmər qoyulmuş tamamlamalar

D) Açıq lülə tamamlamaları, məhsuldar layda tamamlamalar

E) Qapalı lülə tamamlamaları, reper qoyulmuş tamamlamalar

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma Mühəndisliyi. Bakı, 2014

107. 1 Atmosfer neçə meqa Paskala bərabərdir?

A) 10 Mpa

B) 0,01 Mpa

C) 0,1 Mpa

D) 1,0 Mpa

E) 0,001 Mpa

Testin çətinlik dərəcəsi: asan

İstinad: P.Quliyev,H.Məcidov, S.Cəlalov. Qazma məhlulları. Dərslik. Bakı, 2003

108. 1 Stoks neçə m2/san-yə bərabərdir?

A) 10-6 m2/san

B) 10-2 m2/san

C) 10-5 m2/san

D) 10-4 m2/san

E) 10-8 m2/san

Testin çətinlik dərəcəsi: orta

İstinad: P.Quliyev,H.Məcidov, S.Cəlalov. Qazma məhlulları. Dərslik. Bakı, 2003

109. Bitki mənşəli materiallardan alınan kimyəvi reagentlər hansılardır?

A) Sulfat sellülozası, karboksimetilsellüloza, nişasta reagenti

B) Sulfat sellülozası, sulfit-spirt cecəsi, nişasta reagenti

C) Sulfat sellülozası, karboksimetilsellüloza, ferroxromliqnosulfanat

D) Sulfit-spirt cecəsi, karboksimetilsellüloza, nişasta reagenti

E) Ferroxromliqnosulfanat, karboksimetilsellüloza, nişasta reagenti

Testin çətinlik dərəcəsi: orta

İstinad: P.Quliyev,H.Məcidov, S.Cəlalov. Qazma məhlulları. Dərslik. Bakı, 2003

110. Sementləmədən sonra quyuda aparılan yoxlama işləri hansı metodlarla aparılır?

A) Termiki metod, radioktiv izotoplar metodu, neuro-karotaj, akustik metod

B) Emprik metod, radioktiv izotoplar metodu, qamma-qamma karotaj, fokustik metod

C) Termiki metod, emprik metod, qamma-qamma karotaj, akustik metod

D) Termiki metod, radioktiv izotoplar metodu, qamma-deqamma karotaj, fiziotop metod

E) Termiki metod, radioktiv izotoplar metodu, qamma-qamma karotaj, akustik metod

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Rafiq İbrahimov. Neft və qaz quyularının tamamlanması. Bakı, 2016

111. Nasosun faydalı iş əmsalı nə ilə ifadə edilir?

A) Vat

B) Paskal

C) Faizlə

D) kq/m

E) m/san

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.A.Qarayev, Ə.H.Əzizov, S.A.Mahmudov, V.H.Əzizov. Mərkəzdənqaçma nasoslarının özülü mayelərlə işləməsi. Dərslik. Bakı, 2008

112. Kavitasiya nə vaxt yaranır?

A) Kavitasiya maye axınında olan mütləq təzyiqin, mayenin doymuş buxar təzyiqindən azalması nəticəsində yaranır

B) Kavitasiya maye axınında olan nisbi təzyiqin, mayenin doymuş buxar təzyiqindən azalması nəticəsində yaranır

C) Kavitasiya maye axınında olan mütləq təzyiqin, mayenin doymuş buxar təzyiqindən çox olması nəticəsində yaranır

D) Kavitasiya maye axınında olan nisbi təzyiqin, mayenin doymuş buxar təzyiqindən cox olması nəticəsində yaranır

E) Kavitasiya maye axınında təzyiqin və mayenin doymuş buxar təzyiqinin birləşməsi nəticəsində yaranır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: M.A.Qarayev, Ə.H.Əzizov, S.A.Mahmudov, V.H.Əzizov. Mərkəzdənqaçma nasoslarının özülü mayelərlə işləməsi. Dərslik. Bakı, 2008

113. Qazma baltalarının əsas növləri aşağıdakı hansı bənddə düzgün göstərilib?

A) Şaroşkalı konusvari baltalar, kombinəedilmiş baltalar

B) Pərli kəsici baltalar, Pərsiz kəsici baltalar

C) Şaroşkalı konusvari baltalar, pərli kəsici baltalar

D) Şaroşkalı konusvari baltalar, pərli kəsici baltalar, trapesianal kəsici baltalar

E) Şaroşkalı konusvari baltalar, fırlana bilən baltalar

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma Mühəndisliyi. Bakı, 2014

114. Qazma məhlulunun sıxlığını neçə q/sm3 qədər artırmaq olar?

A) 3,5 q/sm3 qədər artırmaq olar

B) 2,8 q/sm3 qədər artırmaq olar

C) 2,2 q/sm3 qədər artırmaq olar

D) 2,9 q/sm3 qədər artırmaq olar

E) 2,5 q/sm3 qədər artırmaq olar

Testin çətinlik dərəcəsi: asan

İstinad: P.Quliyev,H.Məcidov, S.Cəlalov. Qazma məhlulları. Dərslik. Bakı, 2003

115. Qazma məhlulunda həll olunan maddə nə adlanır ?

A) Dispers kontur

B) Dispers faza

C) Normal məhlul

D) Ağırlaşdırıcı

E) Dispers mühit

Testin çətinlik dərəcəsi: asan

İstinad: P.Quliyev,H.Məcidov, S.Cəlalov. Qazma məhlulları. Dərslik. Bakı, 2003

116. Qazma məhlulunda həlledici necə adlanır ?

A) Dispers mühit

B) Dispers inhibitor

C) Normal məhlul

D) Ağırlaşdırıcı

E) Dispers faza

Testin çətinlik dərəcəsi: asan

İstinad: P.Quliyev,H.Məcidov, S.Cəlalov. Qazma məhlulları. Dərslik. Bakı, 2003

117. Statik sürüşmə gərginliyi nəyə deyilir ?

A) Gilli məhlulun strukturunu dağıtmaq üçün tələb olunan minimal gərginlik

B) Gilli məhlulun strukturunu yaratmaq üçün tələb olunan minimal gərginlik

C) Gilli məhlulun strukturunu yaratmaq üçün tələb olunan maksimal gərginlik

D) Gilli məhlulu qarışdırmaq üçün tələb olunan minimal gərginlik

E) Gilli məhlulun strukturunu dağıtmaq üçün tələb olunan maksimal gərginlik

Testin çətinlik dərəcəsi: asan

İstinad: P.Quliyev,H.Məcidov, S.Cəlalov. Qazma məhlulları. Dərslik. Bakı, 2003

118. İşçilərə ilkin təlimatı kim keçir?

A)  Əməyin mühafizə şöbəsinin mühəndisi

B)  Əməyin mühafizəsi şöbəsinin rəisi

C)  Sahə və ya işin rəhbəri

D)  Həmkarlar ittifaqı komitəsinin sədri

E)  Müəssisənin direktoru

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

119. İşçilərə ilkin təlimat harda keçirilir?

A)  Baş mühəndisin yanında

B)  İşçinin göndərildiyi sahədə

C)  Həmkarlar ittifaqı komitəsində

D)  Əməyin mühafizəsi otağında

E)  Əməyin mühafizəsi şöbəsinin rəisinin yanında

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

120. Fəhlələri sərbəst işə buraxmazdan əvvəl onlara təlimatın hansı növü keçirilməlidir?

A)  Giriş

B)  Birdəfəlik

C)  Dövri

D)  Vaxtaşırı

E)  İlkin

Testin çətinlik dərəcəsi: asan

İstinad:  Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456

121. Fəhlələrlə iş yerində ilkin təlimat hansı hallarda aparılır?

A) İşçinin gördüyü işə aid olmayan bir işi yerinə yetirməzdən əvvəl və istehsalat şəraiti dəyişəndə

B) Sərbəst işə buraxılmazdan əvvəl və ilkin işə qəbul olunanda

C) Sərbəst işə buraxılmazdan əvvəl və istehsalat şəraiti dəyişəndə

D) Sərbəst işə buraxılmazdan əvvəl və texnologiyada dəyişlik olunduqda

E) İşçinin gördüyü işə aid olmayan bir işi yerinə yetirməzdən əvvəl və texnologiyada dəyişlik olunduqda

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I-cild. Bakı, 2010. Səh. 456

122. Əl ilə yüklərin daşınması məsafəsi neçə metrdən artıq olduqda yüklərin daşınmasına icazə verilmir?

A) 80 metrdən artıq olduqda

B) 40 metrdən artıq olduqda

C) 60 metrdən artıq olduqda

D) 100 metrdən artıq olduqda

E) 120 metrdən artıq olduqd

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

123. Nə zaman yüklərin yüksəkliyə qaldırılmasına icazə verilir?

A) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

B) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

C) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

D) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

E) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 5 m-dən çox olmadıqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

124. İstehsalat binalarında otaqların tavanı döşəmədən minimum nə qədər məsafədə olmalıdır?

A) 2 metrdən az olmamalıdır

B) 3 metrdən az olmamalıdır

C) 4 metrdən az olmamalıdır

D) 1 metrdən az olmamalıdır

E) 2,5 metrdən az olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi. Məlumat kitabı. Bakı, 2003. Səh. 127

125. Tozlu işləri yerinə yetirən fəhlə hansı fərdi mühafizə vasitəsindən istifadə etməlidir?

A) Çəkmədən

B) Qulaqcıqdan

C) Resperatordan

D) Filtrli əleyhqazdan

E) Şlanqlı əleyhqazdan

Testin çətinlik dərəcəsi: asan

İstinad: Neft emalı və neft-kimya sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2012. Səh. 151

126. Elektrik cərəyanının təsirindən qoruyan mühafizə vasitəsini göstərin?

A) Dezaktivasiya vasitələri

B) Səsboğan

C) İzoləedici örtüklər və qurğular

D) Hermetikləşdirici qurğu

E) İşıq filtrləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

127. Yer səthindən 2 metrdən yüksəklikdə iş aparılan zaman əsasən nədən istifadə olunmalıdır?

A) Rezin əlcəkdən

B) Xüsusi çəkmələrdən

C) Qulaqcıqdan

D) Eynəkdən

E) Qoruyucu kəmərdən

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

128. Nəfəs yollarının mühafizəsi üçün hansı mühafizə vasitələrindən istifadə olunur?

A) Şlanqlı əleyhqazlardan

B) Süzgəcli əleyhqazlar və qulaqcıqlardan

C) Süzgəcli, oksigenli əleyhqazlar və dəbilqədən

D) Resperatorlar, əleyhqazlar və eynəkdən

E) Resperator və  əleyhqazlardan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

129. Günvurma nə vaxt baş verir?

A) Günəşli havada gün şüalarının altında olduqda

B) Yayda kölgəlikdə çox durduqda

C) Isti otaqda  çox qaldıqda

D) İsti yay fəslində günəşli havada gün şüalarının təsiri altında çox durduqda

E) Qışda günəşli havada gün şüalarının təsiri altında çox durduqda

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Ətraf mühitin mühafizəsi haqqında qanunu Bakı 1999

130. Qapalı sınıqlar zamanı ilk tibbi yardım kimi nə etmək lazımdır?

A) Sadəcə həkimi gözləmək

B) Ağrıkəsici dərman vermək və tibb müəssisəsinə çatdırmaq

C) Şina qoyub tərpənməz vəziyyətdə saxlamaq, tibb müəssisəsinə çatdırmaq

D) Təmiz havaya çıxarmaqbintlə sarımaq

E) Deformasiya uğramış nahiyyəni düzləndirib bintlə sarımaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Tibb bacısının məlumat kitabı Bakı  2008

131. Yanan metalları nə ilə söndürmək olar?

A) Xüsusi təyinatlı tozlarla

B) Ümumi təyinatlı tozlarla

C) Köpüklə

D) Su ilə

E) Buxarla

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997
Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

132. Gərginlik altında olan avadanlıqlarda baş vermiş yanğını söndürərkən ilk növbədə nə etmək lazımdır?

A) Bölməni hermetikləşdirmək

B) Qəza bölməsini və avadanlıqları cərəyandan ayırmaq

C) Bölməni su ilə doldurmaq

D) Koşma ilə üstünü bağlamaq

E) Bölməni köpüklə doldurmaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997
Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

133. Yanğın həyəcan siqnalı verilərkən hansı fəaliyyətləri yerinə yetirmək lazımdır?

A) İşi dayandırmaq, toplantı məntəqəsinə getmək və növbəti komandanı gözləmək

B) İşi davam etmək və heyətdən yanğının söndürülməsinə nümayəndə ayırmaq

C) İşi dayandırmaq, əşyaları götürmək, otaqları bağlayıb ərazini tərk etmək

D) Bölməni hermetikləşdirmək və sahil yanğınsöndürmə dəstələrini gözləmək

E) Yanğın yerini axtarmaq və onu söndürməyə başlamaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu (Bakı-10.06.1997)
Respublikasında yanğın təhlükəsizliyi qaydaları

134. Süni tənəffüs hansı yollar ilə verilir?

A) Yalnız ağızdan-ağıza

B) Yalnız ağızdan-buruna

C) Ağızdan-ağıza, ağızdan-buruna

D) Bədəni masaj etməklə

E) Əl və ayağı hərəkət etdirməklə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

135. Peşə xəstəliyi nədir ?

A) Əmək qabiliyyətini qismən itirməklə nəticələnən xəstəlik

B) Əmək qabiliyyətini müvəqqəti itirməklə nəticələnən xəstəlik

C) Vəzifəsini yerinə yetirərkən aldığı zərərli amillərin təsirindən yaranmış xəstəlik

D) Əmək qabiliyyətini tam itirməklə nəticələnən xəstəlik

E) Əmək qabiliyyətini 3 gündən az olmayaraq itirməklə nəticələnən xəstəlik

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

136. Bədbəxt hadisə baş verən zamanı ilk növbədə iş rəhbərinin vəzifəsi:

A) Zərərçəkənə heç bir kömək etməməli və rəhbərliyə xəbər verməli

B) Həmkarlar ittifaqı təşkilatına xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

C) Sanitariya-epidemioloji xidmətinə xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

D) Zərərçəkənə ilk tibbi yardım göstərilməli və tibb məntəqəsinə çatdırılmasını təşkil etməli və rəhbərliyə xəbər verməli

E) Müəssisənin rəhbərliyinə və zərər çəkənin evinə məlumat verməli

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

137. Zərərli istehsalat amillərinin təsiri nəticəsində yaranan xəstəliy:

A) Peşə xəstəliyi

B) Sarılıq xəstəliyi

C) Sətəlcəm xəstəliyi

D) Şəkər xəstəliyi

E) Qızılça xəstəliyi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

138. Hansı hündürlükdən başlayaraq“Yüksəklikdə görülən işlər”anlayışı qüvvəyə minir?

A) 3.0 m

B) 2.5 m

C) 5.0 m

D) 1.8m

E) 2.10 m

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin qərarı ilə 2016-cı ildə təsdiq edilib. Hündürlükdə iş zamanı texniki təhlükəsizlik Qaydaları. Bakı, 2016

139. Kollektiv mühafizə vasitələri nədir?

A) Kənar şəxsləri qorumaq üçün tətbiq edilən vasitələr

B) Tək bir adamı qorumaq üçün tətbiq edilən vasitələr

C) Dəzgahları qorumaq üçün tətbiq edilən vasitələr

D) Bütün sex işçilərini qorumaq üçün tətbiq edilən vasitələr

E) İki və ya çox işçini qorumaq üçün tətbiq edilən vasitələr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999

140. Müəssisədə yanğın təhlükəsizliyi qaydalarına kimlər əməl etməlidir?

A) Fəhlə və qulluqçuların hamısı
B) Sex rəisi
C) Qulluqçular
D) Fəhlələr və aparatçılar
E) Ustalar çilingərlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

141. Məişət və iş otaqlarında hansı elektrik cihazlarından istifadə etmək qadagandır?

A) Slaydoskopdan, telefondan, printerdən

B) Кompyuterdən, printerdən. Proyektordan

C) Кompyuterdən, telefondan, printerdən, kondisionerdən

D) Yüksək tezlikli sobadan, elektrik qızdırıcı cihazlardan, elektrik su qəfədanından

E) Proektordan, kondisionerdən, slaydoskopdan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

142. Fövqəladə hal baş verərsə hansı nömrəyə zəng etmək lazımdır?

A) 112

B) 104

C) 102

D) 103

E) 101

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Fövqaladə Hallar Nazirliyinin qaynar xətti

143. Binalarda yanğına qarşı nə olmalıdır?

A) Pilləkan qəfəsində dəmir qapı

B) Köçürmə sxemləri və işarələri, xəbərdarlıq plakatları, yanğınsöndürmə vəsitələrı

C) Təlimatın kecirilməsi üçün xüsusi otaq

D) Dəhlizdə qumla təchiz edilmiş yangın lövhəsi

E) Mərtəbələrdə əlavə nərdivanla

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

144. Yanğın baş verən zaman ilkin yanğınsöndürmə vasıtələrından kimlər istifadə etməlidir?

A) Sex rəisi

B) Növbə rəisi

C) Fəhlə və qulluqçular

D) Texnoloq

E) Yanğın söndürmə komandiri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

145. Yanğın aşkar etdikdə nə etməli?

A) Dərhal bələdiyyəyə xəbər vermək

B) Dərhal polis mühafizə bölməsinə xəbər vermək

C) İcra hakimiyyətinə xəbər vermək

D) Dərhal yanğından mühafizə bölməsinə xəbər vermək

E) Dərhal əmək müfəttişliyinə xəbər vermək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

146. Fərdi muhafizə vasitələri hansılardır?

A) Tənəffüs orqanları mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri və tibbi mühafizə vasitələri

B) Görmək və eşitmək üçün mühafizə vasitələri

C) Danışmaq üçün mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri

D) Anlatmaq üçün mühafizə vasitələri, ayaq üçün mühafizə vasitələri

E) İtdən və ilandan qorunmaq üçün mühafizə vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999